# Ötən hər gün bizi böyük qələbəyə aparır



**Bu gün Azərbaycan xalqı özünün tarixi, şanlı günlərini yaşayır. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizəyə qalxan Azərbaycan dövləti özünün güclü, qüdrətli, şanlı ordusu ilə bütün cəbhə boyu düşmənə qarşı əks-hücum əməliyyatı həyata keçirir. Az bir zaman kəsiyində doğma torpaqlarımızın bir qismini erməni işğalından azad edən silahlı qüvvələrimiz təsdiq etdi ki, bu gün ordumuz ən müasir silahlarla təmin olunmuş, dünyanın ən güclü orduları sırasındadır. Ali Baş Komandan, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ordu quruculuğunda apardığı ardıcıl, məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün silahlı qüvvələrimiz silah-sursat, müasir döyüş texnikaları, şəxsi heyətin sayı baxımından düşmən ordusunu dəfələrlə üstələyir, bu üstünlüyünü torpaqlarımızı yağı düşməndən azad etmək uğrunda apardığı döyüşlərdə qəhrəmancasına nümayiş etdirir. Azərbaycan əsgəri dövlətinə, öz gücünə arxalanaraq düşmənə çox sarsıdıcı zərbələr endirir, əzəli torpaqlarımızı azad edir. Günbəgün cəbhədən gələn xoş müjdəli xəbərlər hamını sevindirir və əmin edir ki, bütün torpaqlarımızın işğaldan tam azad olunacağı gün artıq çox yaxındadır.**

Bildiyimiz kimi, sentyabr ayının 27-də erməni silahlı qüvvələri cəbhənin bir neçə istiqamətində hərbi mövqe və yaşayış məntəqələrimizi şiddətli atəşə tutdu. Azərbaycanın rəşadətli ordusu bu təxribatın qarşısını aldı, onlara layiqli cavab verdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev sentyabr ayının 27-də Təhlükəsizlik Şurasının iclasındakı çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışaraq bütün dünyaya bəyan etmişdir: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Həqiqətən də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verən və döyüş tapşırıqlarını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğaldan azad edəcəyik".

Ali Baş Komandan onu da vurğulayıb ki, artıq otuz ilə yaxın davam edən işğala son qoyulacaq. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Xalqımız dövlətə tam dəstək göstərir və bunu daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Cənab Prezident dəfələrlə xalqa üz tutaraq deyib ki, biz əlimizdən gələni edirik ki, torpaqlarımız tam işğaldan azad edilsin və siz doğma torpaqlarınıza qayıdasınız. Azərbaycan xalqı da öz Prezidentinə, Ali Baş Komandanına qəti inanır və güvənir. Hər bir vətəndaşımız bu gün silaha sarılıb, işğal altında olan torpaqlarımızı azad etmək üçün səfərbər olub. Yaşanan hər gün, hər an bizi böyük qələbəyə yaxınlaşdırır.

Azərbaycanda Prezident-xalq-ordu birliyi mövcuddur. Qazandığımız son qələbələr şəhər, qəsəbə və kəndlərimizin az bir müddət ərzində azad olunması bütün qələbə uğurlarımızın təminatçısıdır. Müharibənin ilk günlərindən başlayaraq, bir neçə gün ərzində ən önəmli yüksəkliklər ordumuz tərəfindən nəzarətə götürülmüş, düşmənin xeyli sayda canlı qüvvəsi, silah-sursatı, hərbi texnikası məhv edilmişdir. Bu gün məhv olunmuş və ya hərbi qənimət kimi əsgərlərimiz tərəfindən götürülən hərbi texnikanın sayı-hesabı ölçüyəgəlməz qədərdir, çox böyükdür. İstər canlı qüvvə, istərsə də hərbi texnikanın məhv edilməsi günü-gündən artır. Ordumuz dayanmayaraq bütün torpaqlarımızı azad etmək əzmi ilə irəliləyir. Bu haqq savaşından heç bir qüvvə xalqımızı, ordumuzu dayandıra bilməz. Bu gün hər bir qeyrətli Azərbaycan vətəndaşı və ziyalısı kimi, mən də həyatımın ən həyəcanlı, sevincli, şərəfli günlərini yaşayıram və qəti əminəm ki, daha sevincli, xoş müjdəli günlərimizə lap az qalıb. Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə Dağlıq Qarabağ problemi öz həllini tapacaq, bütün işğal altındakı ərazilərimiz işğaldan azad olacaqdır. Xalqımız öz Prezidentinə arxalanır və onun bütün istiqamətlərdə uğurla həyata keçirdiyi siyasəti dəstəkləyir. Cənab Prezident də öz çıxışlarında daim öz xalqına arxalandığını bəyan edir, onun tərəfindən irəli sürülən, həyata keçirilən bütün təşəbbüslərin ölkə əhalisi tərəfindən qətiyyətlə dəstəklənməsini bildirir və bu dəstəyin bundan sonra da böyük uğurlara, qələbələrə aparacağına inanır. Dəfələrlə ölkə başçısı öz çıxışlarında vurğulayıb: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".

Məlum olduğu kimi, bu gün təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq qoşunların təmas xəttinə yaxın olmayan Azərbaycanın yaşayış məntəqələri və mülki obyektləri, təsərrüfat təyinatlı yerləri ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir. Ermənistan silahlı qüvvələri mülki əhalini hədəf alır. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, Mingəçevir şəhəri, Tərtər, Ağdam, Abşeron, Xızı, Daşkəsən, Bərdə və Goranboy Ermənistan ordusunun böyük dağıdıcı gücə malik silahlarından intensiv atəşə məruz qalır, mülki infrastruktur dağıdılır, əhaliyə xəsarətlər yetirilir. Ermənistan silahlı qüvvələri hər iki dövlətin Xarici İşlər nazirlərinin Rusiya və ABŞ görüşlərində əldə olunmuş humanitar atəşkəsi pozaraq öz çirkin əməllərindən əl çəkmir, şəhər və kəndlərimizi atəşə tutur. Döyüş bölgəsindən xeyli uzaqda, mülki əhalinin sıx yaşadıqları əraziləri hədəfə almaq cinayətdir və buna görə Ermənistanın kriminal rəhbərliyi birbaşa məsuliyyət daşıyır. Burada Ermənistanın əsas məqsədi digər dövlətləri bu münaqişəyə cəlb etməkdir. Bununla bərabər, Qarabağdakı uğursuzluqlarından ölkə cəmiyyətinin diqqətini yayındırmaq və Azərbaycanın dinc əhalisini qorxutmaqla onları yaşadıqları yerləri tərk etməyə vadar etməkdir. Lakin cəbhə bölgəsində yaşayan soydaşlarımız ordumuzun gücünə inanır, öz doğma yerlərini, evlərini tərk etmir və gündəlik qayğıları ilə yaşayırlar. Vətəndaşlarımızın hamısında böyük ruh yüksəkliyi var, vətənpərlik nümayiş etdirirlər.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabr ayının 26-da xalqa müraciətində deyib ki, bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir və biz vətən torpaqlarını işğaldan azad edirik. Ötən bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini işğaldan azad edib. Biz döyüş meydanlarında tarixi ədaləti bərpa edirik. Qarabağ tarixini bütün dünya ictimaiyyətinə doğru-düzgün çatdırmaq üçün uzun illər ərzində böyük işlər görülmüşdür. Çünki 1990-cı illərdə Azərbaycan haqqında dünyada o qədər də geniş təsəvvür yox idi. Sovet vaxtında, münaqişəyə bir neçə il qalmış separatizm meyilləri geniş vüsət almışdı. O dövrlərdə Moskvada antiazərbaycan rəhbərlərinin hakimiyyət kürsüsündə olmasından istifadə etdilər və separatizm meyilləri daha da gücləndi. Onların hədəfində ilk növbədə Heydər Əliyevi tutduğu yüksək vəzifədən kənarlaşdırmaq idi. Onlar yaxşı bilirdilər ki, Heydər Əliyevin varlığı, sovet rəhbərliyində onun böyük nüfuza malik olması onların planını alt-üst edirdi. Heydər Əliyev bütün vəzifələrdən gedəndən 2 həftə keçməmiş baş qaldıran erməni separatçılar məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın və Ermənistana verilsin və həmin vaxtdan xalqımızın bu bəlaları başladı. Qarabağda qanunsuz xüsusi idarəetmə komitəsi yaradıldı, qatı ermənipərəst bir insan ora rəhbər rəyin olundu və beləliklə, faktiki olaraq Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün zəmin yaradıldı. Ovaxtkı Azərbaycan rəhbərliyi bu təhlükəli hadisələrə tamaşa edir, səs qaldıra bilmir, cəsarəti çatmırdı. Və beləliklə, torpaqlarımız işğal altına düşmüşdür. Münaqişənin həlli üçün 1992-ci ildə Minsk qrupu yaradıldı. Ötən illər ərzində münaqişənin həlli üçün heç bir iş görməyən həmsədrlərin işi görüşlər xatirinə görüş keçirmək, iflic olmuş bir qrup kimi mənasız işlərlə məşğul olmağa başlamışlar. Onlar çalışırdılar ki, daim danışıqlar getsin, bizim başımızı aldatsınlar, bu məsələ dondurulsun, bizim torpaqlarımız işğal altında əbədi qalsın. Bu məsələ də Ermənistanı qane edirdi.

Dünya artıq əvvəlki dünya deyil. Güc amili ön plana çıxır və bunu biz etmişik. Minsk qrupunun həmsədrlərinin edə bilmədiklərini biz edirik. Ermənsitandan fərqli olaraq heç kimdən kömək istəmirik. İndi artıq Azərbaycan o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoysun. Artıq bizi heç bir qüvvə haqq yolumuzdan döndərə bilməz. Bu gün döyüş meydanında əldə edilmiş uğurlar danışıqlar masasında da yeni reallıqlar yaradıbdır. Biz mütləq öz torpaqlarımıza hərbi-siyasi yollarla qayıdacağıq.

Bu gün Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun əsgərləri döyüş bölgələrində qəhrəmanlıq göstərir, düşmən ordusunun canlı qüvvəsini, silah-sursatını məhv edərək ərazilərimizi işğaldan azad edir. Artıq ordumuzun qabağında tab gətirməyəm düşmən döyüşdən silah-sursatlarını qoyub qaçır. Ordumuz böyük qələbəyə doğru inamla addımlayır. Cəsur əsgərlərimizin qarşısında durmağa düşmən hərbi birləşmələrinin gücü, silahı qalmayıb. Sentyabr ayının 27-dən başlayaraq bu günə qədər Ermənistanın məhv edilmiş və hərbi qənimət kimi götürülmüş texnikasının dəyəri 3 milyarda yaxındır. Və sözsüz ki, hər gün böyük itkilər verən düşmənin cəbhədə itirdikləri istər canlı qüvvə, istərsə də texniki sursat baxımından daha da çoxalacaqdır. Ön cəbhədən gələn qələbə xəbərləri bütün bu reallığı göstərir. Hər gün onlarca kəndimiz, yaşayış məntəqələmizin azad olunması daha yeni müjdələrdən xəbər verir. Azərbaycan xalqı qəti əmindir ki, azərbaycanlılar əvvəllər yaşadıqları bütün yerlərə, o cümlədən Şuşaya, Xankəndiyə qayıdacaqdır. O günlər çox da uzaqda deyil.

Xalqımız tam əmindir ki, dövlətimizin həyata keçirdiyi uğurlu siyasət, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, ölkəmizin həyatında yeni bir inkişaf mərhələsi başlayacaq. Hər zaman xalqının yanında olan, onun daha yaxşı və daha təhlükəsiz yaşaması üçün böyük işlər görən, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi istiqamətində tədbirlər, islahatlar həyata keçirən, Azərbaycanın sözünü imzası qədər dəyərli edən ölkə Prezidentinə xalqımızın tükənməz sevgisi və möhkəm dəstəyi var. Azərbaycan xalqının bu sevgi və dəstəyinə arxalanan Ali Baş Komandanın rəhbərliyi ilə Şanlı Ordumuz Qarabağı, işğal olunmuş bütün torpaqları erməni separatçılarından tam azad etmək əzmində və qüdrətindədir. Bizi bu yoldan, Haqq savaşından heç bir qüvvə dayandıra bilməz. Qələbə Azərbaycanladır, Qarabağ Azərbaycanındır!

**Alim ÖMƏROV,**
**"Orbit" şirkətlər qrupu İdarə Heyətinin sədri.**